iki sahil

## Yeni Azərbaycan Partiyası - 27

# YAP: Zamanın tələbindən yaranan partiya

"Mən Yeni Azərbaycan Partiyası ilə bərabərəm və partiyanın bugünkü vəziyyətini görərkən çox sevinirəm və hesab edirəm ki, Yeni Azərbaycan Partiyası yaşayacaq və fəaliyyət göstərəcək."

**Ulu öndər Heydər Əliyev**



Zamanın hökmünü, izlərini səhifələrində yaşadan tarix hər bir dövlətin, xalqın, fərdin şəcərəsi, yaddaşı deməkdir. Həmin tarixləri xatırlatmaqla 27 il bundan əvvəl təsis olunan Yeni Azərbaycan Partiyasının, onun qurucusu ulu öndər Heydər Əliyevin siyasi irsinin məqamlarına nəzər salaq. Azərbaycan xalqının mənafelərinə xidmət edən və ən çətin məqamlarda ölkə vətəndaşlarını düşündürən problemlərin həllində, mühüm islahatların aparılmasında avanqard rolunu xidmətləri ilə doğruldan Yeni Azərbaycan Partiyası (YAP) 27 ildə sadiq qaldığı siyasəti ilə milyonların partiyası olduğunu sübut etdi. Ulu öndər Heydər Əliyevə ümumxalq məhəbbətinin təzahuru kimi qısa müddətdə ətrafına yüz minlərlə üzv, tərəfdaş toplanan partiya zamanın tələbinə uyğun, zərurətdən yaranmış təşkilat olduğunu qüdrətli Azərbaycanın bugünkü simasında göstərdi, müstəqilliyimizin təminatçısı kimi də etimadı doğrultdu. O dövrdə hakimiyyəti qanunsuz olaraq zəbt edən AXC-Müsavat iqtidarının səriştəsiz rəhbərlərinin yaratdığı xaosdan fərqli olaraq yalnız xalqı ətrafına toplamaqla müstəqilliyimizin əbədiliyi naminə xalqı arxasınca aparan YAP iqtidar partiyası kimi insanlara bələdçilik, ölkənin iqtisadi böhrandan çıxması üçün bütün qüvvələri səfərbər etdi, təkmil proqram və konsepsiyaya uyğun olaraq yeni idarəetmə metodunun tətbiqi ilə müasir Azərbaycanın inkişaf istiqamətlərini müəyyənləşdirdi.

Natiqlik məharəti, səlis nitqi, heyrətamiz zəkası, fenomen yaddaşı ilə hər kəsi heyran qoyan ulu öndər Heydər Əliyev müasirləri arasında ensiklopedik yaddaşı, hadisələri təhlil edib, qiymətləndirmək baxımından da müasirlərindən fərqlənib. Həmin müşavirədəki çıxışı ilə hamını heyran qoyan Ulu Öndər fitri istedad sahibi olduğunu göstərdi.

22 noyabr 1994-cü ildə Yeni Azərbaycan Partiyasının yaradılmasının ikinci ili münasibətilə keçirilən respublika müşavirəsindəki çıxışı ilə təkcə partiyanın yaranması zərurəti, fəaliyyəti, əhəmiyyəti barədə deyil, siyasi təşkilat olaraq Azərbaycanda baş verən ictimai-siyasi hadisələrə təsiri ilə bağlı aydınlıq gətirən ulu öndər Heydər Əliyev ölkəmizin ictimai-siyasi tarixinə daha dəyərli bir səhifə yazdı. Bu yol isə o qədər də asan olmadı.

..."91-lər"in məlum müraciətini qiymətləndirərək YAP-ın zamanın tələbindən yaranan təşkilat olduğunu bildirən Ulu Öndər vurğulayırdı ki, partiya vətənpərvər, xalqına, ölkəsinə, millətinə xidmət etmək istəyən insanların təşəbbüsü ilə yaradılmışdır: "Bu müraciət mətbuatda dərc olundu, mən ona cavab verdim, minnətdarlığımı bildirdim. Ancaq şübhəsiz, həm bu təklifi qəbul etmək üçün o vaxtlar şərait yox idi, həm də yenə deyirəm, mən öz mövqeyimdə dururdum ki, Azərbaycan üçün xalq üçün, respublikamız üçün ürəyim nə qədər yansa da, mən o şərtlərlə, o şəraitdə Bakıya qayıdıb fəaliyyət göstərməyimi mümkün hesab etmirdim. Lakin bütün bu proseslər, eləcə də tək Bakıdan deyil, Azərbaycanın bir çox şəhərlərindən, rayonlarından mənə, Naxçıvana ardı-arası kəsilmədən gələn məktublar elə bir şəraitə gətirib çıxardı ki, mən Yeni Azərbaycan Partiyasının yaranmasına razılıq verdim" söyləyən, partiyanın Proqram və Nizamnaməsinin hazırlanması ilə şəxsən məşğul olan Ulu Öndər bildirirdi ki, həmin sənədlərdə Azərbaycanda müstəqil, demokratik, hüquqi dövlət quruculuğunun mahiyyəti əks olunurdu.

YAP-ın yaradılmasını insanların istəklərinin reallaşması kimi dəyərləndirən Ulu Öndərin "Şübhəsiz ki, Yeni Azərbaycan Partiyasının yaranması mənim adımla bağlıdır və bu mənim iştirakımla olmuşdur. Lakin mən həmişə həqiqəti sevmişəm və həyatım da həqiqət üzərində qurulmuşdur. Buna görə də bildirmək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının yaranması mənim təşəbbüsümlə olmayıb. Bu partiyanın yaranması Azərbaycanın, demək olar ki, əksər bölgələrində, nöqtələrində, şəhərlərində, rayonlarında, əmək kollektivlərində yaranan əhval-ruhiyyədən irəli gəlmiş bir hadisədir" sözləri bu sahədə əməyi olanlara verdiyi dəyər idi. Ulu Öndər partiyanın yaradılmasında təşəbbüs göstərən ziyalıları cəfakeş, fədakar insanlar adlandırırdı: "Yenə də deyirəm, mən sizin, Yeni Azərbaycan Partiyasını təşkil edənlərin, quranların, o həvəskarların, uzun müddət bu məsələni mənim qarşımda qaldıranların və nəhayət Yeni Azərbaycan Partiyasının Naxçıvanda yaranmasına nail olanların fəaliyyətini qiymətləndirirəm və həmişə qiymətləndirəcəyəm."

Azərbaycana rəhbərliyinin qərinədən artıq dövründə təcrübəli siyasi və dövlət xadimi olduğunu xalqına xidmətləri ilə təsdiqləyən müdrik şəxsiyyət Heydər Əliyev təvazökarlığının nümunəsi olan bu kimi etiraflar Ulu Öndərin həyat amalı olmaqla, onu insanlara sevdirən insani keyfiyyətlərindəndir. Ulu Öndər YAP-ın müxalifət partiyası kimi yaranmasına baxmayaraq qısa müddətdə iqtidar partiyasına çevrilməsini təşkilata ümumxalq etimadı, məhəbbəti kimi dəyərləndirirdi. Bildirirdi ki, Azərbaycan xalqının milli mənliyini, qürurunu dünyaya bəyan etmək üçün baş verən milli birlik hərəkatı müstəqilliyimiz üçün əsas yaratmışdır.

Partiyanın müəyyən mərhələlərdən keçərək bütün sınaqlardan uğurla çıxacağına əminliyini də ifadə edirdi. "Əgər Yeni Azərbaycan Partiyası yaranandan 1993-cü ilin iyun hadisələrinə qədər bir mərhələ, sınaq mərhələsi keçmişdirsə, ondan sonrakı dövr ikinci sınaq mərhələsidir. Əvvəlki sınaq mərhələsi Yeni Azərbaycan Partiyasının hakimiyyət tərəfindən təzyiq və təqibi ilə əlaqədar idisə, sonrakı sınaq mərhələsi partiyanın dövlət tərəfindən dəstəyi olmadan özünün nəyə qadir olduğunu sübut etmək mərhələsidir" söyləyən ulu öndər Heydər Əliyev bildirirdi ki, bu partiyaya kim ideya, məslək yolu ilə gəlibsə, o bütün çətinliklərə dözür, cəfakeşlik edir. Çünki YAP demokratiyanın, insan hüquqlarının bərqərar olduğu bir cəmiyyətin təşəkkül tapması istiqamətində fəaliyyət göstərən bir partiyadır. Ona görə də YAP-ın əsas məramlarından biri də kəmiyyət və keyfiyyətcə dəyişmək, sağlam prinsiplər əsasında möhkəmlənməkdir. Ölkədə çoxpartiyalılıq sisteminə sadiq qalmaqla demokratik, hüquqi dövlət quruculuğu Azərbaycanın gələcək yolu kimi müəyyənləşdirən Ulu Öndər söz, mətbuat azadlığına xüsusi diqqətlə yanaşırdı. Həmin müşavirədə mətbuatın rolunu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev "İki sahil", "Səs", "Naxçıvan", "Yeni Azərbaycan" qəzetləri haqqında müsbət fikirlərini diqqətə çatdırır: " O vaxt "İki sahil" qəzeti yaranmışdı. Mən hesab edirəm ki, bu qəzet də çox iş görmüşdür. Bu qəzet indi də Yeni Azərbaycan Partiyasına xidmət edir. Amma o vaxt bu partiya yox idi, lakin "İki sahil" qəzeti çox cəsarətli məqalələr verirdi." O ağır illərdə Ulu Öndərin ideyalarının ictimaiyyətə çatdırılmasında yaxından iştirak edən, cəsarətli yazıları ilə oxucuların diqqətini cəlb edən "İki Sahil" qəzeti bu gün də Yeni Azərbaycan Partiyasının, onun Sədri Prezident İlham Əliyevin davam etdirdiyi siyasətə sadiqdir.

2003-cü ilin 15 oktyabrına təyin olunan prezident seçkiləri ərəfəsində Azərbaycan vətəndaşlarına "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük inam bəsləyirəm" tarixi müraciəti ilə Azərbaycanın gələcəyi kimi qurub yaratdığı partiyanı da sədaqətli davamçısına etibar edən Ulu Öndər xalqına növbəti xidmətini göstərdi.

Qüdrətli dövlət kimi mövqeyi möhkəmlənən ölkəmizi dünyada tanıdan Prezident İlham Əliyevin başçılıq etdiyi Yeni Azərbaycan Partiyasının qazanılan uğurlarda rolu, fəaliyyəti, öndərliyi barədə deyilənlər varislik ənənəsinə sadiqliyi təsdiqləyən həqiqətdir.

Elə buna görədir ki, bütün siyasi kampaniyalarda opponentlərini üstələyən, ümumxalq etimadı qazanan YAP qalib siyasi təşkilat, yenilməz vahid qüvvə olduğunu təsdiqləyir. Prezident, parlament, bələdiyyə seçkilərində, referendumlarda partiyaya olan ümumxalq inamı milyonların etimadı göstərir ki, məqsədi, məramı Vətənə, dövlətçiliyə xidmət olan YAP xalqın, milyonların partiyasıdır.

**X.İsmayılqızı,**
***"İki sahil"***